# 2015-ci il əzəmətli tədbirlərlə zəngin olacaq

**Mühüm ictimai-siyasi, sosial hadisələrlə zəngin olan daha bir il tarixə çevrilir, yeni – 2015-ci il dinamik və sürətli inkişaf yolunda inamla irəliləyən yurdumuza qədəm qoyub. Adətən məhz bu gün, illərin qovuşuğunda ötənləri yada salır, şahidi və iştirakçısı olduğumuz mühüm tarixi anları, qazandığımız uğurları, əldə etdiyimiz nailiyyətləri nəzərdən keçirib təhlil edirik. Bu da insanın qəlbində daha böyük arzuların baş qaldırmasına stimul verir, əldə olunan möhtəşəm uğurlar fonunda müstəqil Azərbaycanımızı sevən hər kəsin ürəyi qürurla döyünür. Belə bir ölkədə yaşadığımızla, onun vətəndaşı olmağımızla fəxr edirik. Özünün hərtərəfli inkişafı ilə qısa zaman kəsiyində müstəqil respublikamız qüdrətli dövlətə çevrilməkdədir. Bütövlükdə ötən illər ərzində sürətli sosial-iqtisadi inkişaf tempi qorunub saxlanılıb, xalqımızın həyat səviyyəsi ildən-ilə yaxşılaşıb.**

Ümummilli liderimiz, müstəqil respublikamızın hamisi Heydər Əliyevin əsasını qoyduğu inkişaf və tərəqqi strategiyası möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun yeni müstəvidə uğurla davam etdirilir. Təsadüfi deyil ki, mötəbər beynəlxalq qurumlar, nüfuzlu siyasətçilər və ekspertlər Azərbaycanda iqtisadi və siyasi islahatların həyata keçirilməsi istiqamətində görülən işləri təqdir edir və yüksək qiymətləndirirlər. Ölkəmizə gələn qonaqlar Azərbaycanın, paytaxt Bakının inkişafına heyranlıqlarını gizlətmirlər.

Bəli, ölkə başçısı tərəfindən qarşıya qoyulan bütün vəzifələr dövlət proqramları, nəzərdə tutulan tədbirlər ötən il də böyük mütəşəkkilliklə icra olunmuşdur. Respublikamızın bütün bölgələrində canlanma müşahidə olunur, abadlıq-quruculuq işləri daha geniş vüsət alır. Bütün infrastruktur layihələr reallaşdırılır, yeni yollar salınır və onlar ən yüksək standartlara cavab verir. Kənd və qəsəbələr, şəhərlərmiz, paytaxtımız gündən-günə gözəlləşir. Hər il yeni yol infrastrukturunun, müxtəlif obyektlər, park və idman komplekslərin açılışı olur ki, bu baxımdan da 2014-cü il zəngin olmuşdur. Sosialyönümlü iqtisadi siyasət sayəsində neftdən gələn gəlirlər qeyri-neft sektorunun inkişafını təmin edir, ölkə vətəndaşlarının sosial rifahının yaxşılaşmasında mühüm əhəmiyyət kəsb edən aztəminatlı ailələr üçün ünvanlı sosial yardım proqramı uğurla həyata keçirilir, pensiyaçılara diqqət və qayğı artır. Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə yeni məktəblər tikilib istifadəyə verilir, mövcud məktəblər yenidən qurulur. Təhsilin inkişafı dövlət siyasətinin əsas prioritetlərindən birini təşkil edir. Hazırda ən müasir tibbi avadanlıqlarla təchiz olunan səhiyyə ocaqlarının sayı ildən-ilə artır. Təqdirəlayiq haldır ki, indi bölgələrimizin əksəriyyətində tibbi-diaqnostika mərkəzləri fəaliyyət göstərir. Yeni iş yerlərinin yaradılması sayəsində işsizlik probleminin aradan qaldırılması istiqamətində mühüm addımlar atılmışdır. Əhəmiyyətli məsələlərdən biri də enerji təhlükəsizliyinin təmin olunmasıdır ki, bu baxımdan Azərbaycan Prezidenti tərəfindən görülən işlər hər birimizdə gələcəyə inam yaradır. Azərbaycanın təbii sərvətləri olan neft və qaz dünya bazarlarına çıxarılır və onun ixrac coğrafiyası genişləndirilir. Ölkəmizlə enerji sahəsində əməkdaşlıq etmək istəyən dövlətlərin sayı artmaqdadır. Bu da ölkəmizin beynəlxalq nüfuzunun artmasına səbəb olur. Ötən il bir sıra dövlətlərin rəhbərlərinin ölkəmizə rəsmi səfərlərinin şahidi olmuşuq. Bir çox dövlətlər etibarlı tərəfdaş kimi Azərbaycanla iqtisadi-siyasi əməkdaşlıq əlaqələrinin davam etdirilməsində maraqlıdırlar.

Yola saldığımız 2014-cü ildə də Azərbaycanın yürütdüyü xarici siyasətinin ana xəttini xalqımızın ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli məsələsi təşkil etmişdir. Möhtərəm Prezidentimiz problemin tezliklə beynəlxalq hüquq normaları çərçivəsində həlli istiqamətində xalqımızın iradəsini ortaya qoymuşdur. Diplomatik fəaliyyətlə yanaşı, respublikamız öz hərbi potensialını da gücləndirir. Torpaqlarımızı işğaldan azad etmək üçün qüdrətli ordumuz var. Döyüş qabiliyyəti, hərbi vətənpərvərlik ruhu yüksək olan ordumuz müasir silah-sursat baxımından da güclüdür. Bütün bunlar problemin yaxın zamanlarda ədalətli həll olunacağına, məcburi köçkünlərimizin doğma torpaqlarına qayıdacağına inamımızı artırır. Bu işdə xalqımız hər zaman ölkə başçısının yanındadır, onun siyasətini dəstəkləyir. Ötən il mədəniyyət və incəsənət, idman sahəsində çox böyük uğurlar qazanılıb. Azərbaycan bir sıra beynəlxalq səviyyəli mədəniyyət tədbirlərinə müxtəlif səpkili festivallara ev sahibliyi edib. Respublikamızda mühüm əhəmiyyətli beynəlxalq yarış və turnirlər keçirilmişdir. 2014-cü il tərəqqi yolu ilə inamla addımlayan ölkəmizin iqtisadiyyatında, xüsusən də özəl sektorun inkişafı istiqamətində mühüm irəliləyişlər oldu. Bu gün Azərbaycanda sahibkarlığın inkişafı üçün dövlət tərəfindən əlverişli şərait yaradılıbdır. Sahibkarlar dövlətdən həm mənəvi, həm də hüquqi dəstək alırlar. Bu dəstəkdən bəhrələnərək Azərbaycanda daşınmaz əmlak sahəsində müvəffəqiyyətlə çıxış edən "Prant" şirkəti üçün də düşərli il olmuşdur. 2015-ci ilin astanasında kollektiv adından qeyd etmək istəyirəm ki, şirkətimizin uğurlu inkişafı davam edir, sanballı nailiyyətlər əldə edirik. Daşınmaz əmlakın icarəyə verilməsi və satışı üzrə xidmətlər göstərməklə fəaliyyətə başlayan agentlik hazırda Azərbaycanın daşınmaz əmlak bazarında irimiqyaslı investisiya layihələrini həyata keçirən ilk özəl müəssisə kimi tanınır. Onu da əlavə edim ki, şirkətimiz yüz mindən artıq obyekt haqqında informasiyanı özündə ehtiva edən həcmli və daim yeniləşən məlumat bazasına malikdir. Şirkətimiz müxtəlif sahəli, şəhərin mərkəzində təmir olunmuş əla görünüşlü yaşayış binaları təklif edir. Həmçinin şirkətin təkliflər siyahısına avadanlığı olan müəssisələr, torpaq sahələri, kommersiya yönümlü daşınmaz əmlakın digər növləri də daxildir. "Prant" daxili, həm də xarici sərmayələrin cəlb oulnması ilə də məşğuldur. Bu gün "Prant" İnformasiya Agentliyi öz statusunu təkcə Azərbaycanın daşınmaz əmlak bazarında yox, həm də onun hüdudlarından kənarda dünya dövlətlərinin tanınmış təşkilatları və şirkətləri ilə birgə fəaliyyət zəminində təsdiq etmək iqtidarındadır. Şirkətimiz dəfələrlə beynəlxalq mükafatlara layiq görülübdür. Bununla yanaşı, "Prant" şirkəti sahibkarlıq sahəsində təşkil olunan mötəbər konfrans, simpoziumlarda da ardıcıl olaraq iştirak edir. Bu səfərlərdə Azərbaycanda baş verən sosial-iqtisadi inkişaf, ölkəmiz haqqında müfəssəl məlumatlar verirəm. Bir məsələni də xüsusi vurğulayım ki, xarici iş adamlarının Azərbaycana maraqları olduqca böyükdür. Bu məhz möhtərəm Prezidentimizin şəxsi nüfuzundan, onun düşünülmüş fəaliyyətindən qaynaqlanır. 2015-ci ildə də kollektivimiz uğurlu fəaliyyətini davam etdirmək əzmindədir. İnanırıq ki, yeni ildə də nailiyyətlərimiz çox olacaqdır.

Əminik ki, 2015-ci il də əzəmətli tədbirlərlə zəngin olacaqdır. Ən mühümü Azərbaycan ilk Avropa Oyunlarına ev sahibliyiniyerinə yetirəcəkdir ki, bu da onun beynəlxalq imicinin yüksəlməsinə dəyərli töhfələr verəcəkdir. Gələn il həm də parlament seçkiləri ilə də yadda qalacaqdır. Bir sözlə, bizi daha möhtəşəm inkişaf ili gözləyir. Xalqımızı yeni – 2015-ci il münasibəti ilə səmimi təbrik edir, hamıya firavanlıq arzulayıram.

**Yusif ƏLƏKBƏROV, "Prant" şirkətinin prezidenti, beynəlxalq mükafatlar laureatı.**